**AZƏRBAYCAN RESPUBLİKASININ**
**ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ**
**DÖVLƏT AGENTLİYİ**

# ƏMR

№ 24

Bakı şəhəri "30" dekabr 2014-cü il

**Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi haqqında**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 10 fevral 2014-cü il tarixli 021-Q nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"na əsasən dövlət qulluqçusunun təqvim ili ərzində fəaliyyətini, tutduğu vəzifəyə dair tələbləri yerinə yetirməsini və gələcək inkişaf perspektivlərini müəyyən etmək üçün Agentlikdə inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinin təmin edilməsi məqsədilə

**əmr edirəm:**

1. Agentlikdə inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Forması"na (bundan sonra - Forma) əsasən aparılsın (əlavə olunur).

2. Struktur bölmə və struktur vahidin rəhbərlərinə tapşırılsın ki:

2.1. "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"nın tələblərinə uyğun olaraq tabeliyində olan dövlət qulluqçusunun 2015-ci il yanvar ayının 1-dən dekabr ayının 31-dək olan dövr üzrə xidməti fəaliyyətinin qiymətləndirilməsi ilə əlaqədar olaraq müvafiq tədbirləri həyata keçirsin;

2.2. tabeliyində olan dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi məqsədi ilə yanvar ayının 30-dək Formaya əsasən tapşırıqlar versin və həmin tapşırıqlar üzrə qiymətləndirmə meyarlarının mühümlük dərəcəsini müəyyən etsin;

2.3. Formanı mütəmadi olaraq nəzərdən keçirsin, ilin əvvəlində qoyulmuş tapşırıqlarda, tapşırıqların icra müddətlərində və ya meyarların mühümlük dərəcəsində hər hansı bir dəyişiklik olarsa, bu dəyişiklikləri Formada qeyd etsin;

2.4. qiymətləndirməni dekabr ayının 1-dən gec olmayaraq başlasın və növbəti ilin yanvar ayının 10-dək başa çatdırsın;

2.5. qiymətləndirmənin nəticələri barədə hesabatı hazırlayaraq növbəti ilin fevral ayının 1-dək Dövlət qulluğu və kadrlar şöbəsinə təqdim etsin.

3. Dövlət qulluğu və kadrlar şöbəsi "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"nın tələblərinə uyğun olaraq kadr xidmətinin funksiyalarını həyata keçirsin.

4. Dövlət qulluğu və kadrlar şöbəsinə tapşırılsın ki, Agentlik üzrə qiymətləndirmənin nəticələrinə dair yekun hesabatı mart ayının 1-dək Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməsini təmin etsin.

5. İnformasiya və kommunikasiya texnologiyaları sektoru Agentliyin internet səhifəsində bu əmrin və "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"nın yerləşdirilməsini təmin etsin.

6. Ümumi işlər üzrə sektora tapşırılsın ki, bu əmrin surətini aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Sədr** **Akim Bədəlov**